*K.Məhərrəmova. Hüseyn Cavid yaradıcılığında təsəvvüf məsələlərinin öyrənilməsi tarixindən // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.116-124.*

UOT: 82.0:01: 17.81.31

**Könül Məhərrəmova**
*dissertant,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç. 26*
*e-mail: konulmeherremli7@gmail.com*

# HÜSEYN CAVİD YARADICILIĞINDA TƏSƏVVÜF MƏSƏLƏLƏRİNİN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN

*Orta əsrlərdə yaşayıb-yaratmış şairlərimizin yaradıcılığında çox mühüm yer tutan təsəvvüf fəlsəfəsi sonrakı dövrlərdə fəaliyyət göstərmiş ədiblərimizin əsərlərində, xüsusən də XX əsr romantiklərinin yaradıcılığında öz bədii əksini tapmışdır. Belə söz sənətkarlarımızdan biri də görkəmli şair və dramaturq Hüseyn Caviddir. Dahi söz ustadının bədii irsi ilə bağlı aparılan araşdırmalarda, xüsusən də son dövrlərdə H.Cavidin fəlsəfi dünyagörüşü ilə bağlı tədqiqatlarda şairin yaradıcılığındakı irfani fikirlərə də kifayət qədər yer verilmiş, böyük mütəfəkkirin təsəvvüfi baxışlarının açılmasına müəyyən cəhdlər edilmişdir.*

***Açar sözlər:*** *ədəbiyyatşünaslıq, Azərbaycan ədəbiyyatı, dramaturgiya, sufizm, islam, Şərq fəlsəfəsi*

## Giriş

*Bu barədə araşdırmalar aparan ilk tədqiqatçılardan biri dosent Hənəfi Zeynallı (1896-1937) olmuşdur. Onun H.Cavidin "Şeyx Sənan" və "Peyğəmbər" əsərləri ilə bağlı yazılarında müəllifin təsəvvüf fəlsəfəsindən bəhrələndiyi və bu təsirlərin Cavidin bəzi dramaturji əsərlərində də əks olunduğu qeyd olunur. Ədəbiyyatşünas, tənqidçi H.Zeynallıya görə, bunun əsas səbəbləri H.Cavidin ruhani ailəsində böyüməsi və İstanbulda Rza Tofiqin rəhbərliyi altında təhsil alması olmuşdur (17, s. 67-68). Qeyd edək ki. H.Zeynallının məqalələri sovet dövründə, repressiya illərinə yaxın bir zamanda dövrün ictimai fikrinin tələbləri çərçivəsində qələmə alındığından onlarda irfan fəlsəfəsi, təsəvvüf zərərli elementlər kimi təqdim edilmişdir.*

H.Cavid haqqında yazdığı yazılarda H.Zeynallı müəllifi kəskin şəkildə tənqid etsə də (bu tənqid bir çox hallarda birtərəfli olurdu), onun şairin yaradıcılığında təsəvvüfi fikirləri görməsi belə öz dövrü üçün diqqətəlayiq hal idi. Belə ki, 1920-30-cu illərdə H.Cavidlə bağlı yazılarda, ümumiyyətlə, Azərbaycan ədəbiyyatı ilə bağlı tədqiqatlarda dini təsəvvürlərə, eləcə də təsəvvüf ideyalarına ümumiyyətlə toxunulmur, onlardan yan keçməyə çalışırdılar.

Bu tendensiya sonrakı illərdə də davam etmişdir. Belə ki, cavidşünas Zahid Əkbərov da sələfi H.Zeynallı kimi Hüseyn Cavidin təsəvvüflə maraqlanmasını müəllimi Rza Tofiqin təsiri ilə əlaqələndirmişdir (3, s. 37).

Müstəqillik dövründə aparılan tədqiqatlarda H.Cavidin əsərlərində irəli sürülən ideyaları təsəvvüflə bağlamaq meyli güclənmişdir. Bu cəhətdən ədibin "Şeyx Sənan", "İblis", "Peyğəmbər" pyesləri və müxtəlif poemaları barədə mülahizələr diqqəti cəlb edir.

Filologiya üzrə elmlər doktoru, professor Tahirə Məmmədin "XX əsr Azərbaycan dramaturgiyasının poetikası" adlı tədqiqatı bu cəhətdən xüsusi qeyd olunmalıdır. Müəllif burada H.Cavid yaradıcılığındakı ideyaları təsəvvüf kontekstində dəyərləndirmiş, diqqəti onun əsərlərində təsəvvüflə səsləşən məqamlara yönəltməyə çalışmışdır. T.Məmməd göstərir ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində ədəbiyyatda klassik Şərq ənənələrinə qayıdış müşahidə olunurdu ki, bu qayıdış özünü təsəvvüf fikirlərinin bədii əsərlərdə əks olunmasında da göstərirdi. Sufizmə yeni mövqedən yanaşma özünü daha çox N.Kamal, Ə.Hamid, T.Fikrət, R.Tevfiq və H.Cavid, M.Hadi yaradıcılığında göstərirdi (12, s. 19). T.Məmmədin fikrincə, XX əsrin əvvəllərində bir çox ədiblərdə bu və ya digər dərəcədə təsəvvüfdən istifadə olunmuşdursa da, bu cəhətdən Hüseyn Cavid yaradıcılığı xüsusilə seçilir, çünki H.Cavid təsəvvüfdən daha çox bədii konsepsiya yaratma vasitəsi kimi istifadə etmişdir (12, s. 22).

T.Məmməd fikirlərini əsaslandırmaq üçün H.Cavidin ayrı-ayrı əsərlərində təsəvvüflə səsləşən məqamlara toxunmuşdur. Alim "Şeyx Sənan"ı sırf sufizm mövqeyindən yazılmış əsər hesab edir (12, s.24). Beləliklə, mütəfəkkir sənətkar Hüseyn Cavid dramaturgiyada sufizm haqqında məlumat vermiş olur.

Professor T.Məmməd "Şeyx Sənan" əsərində təsəvvüfə aid aşağıdakı elementlərin olduğunu qeyd edir:

1. Sənanın gecələr yatmaması, qaranlığa girməsi onun cəzbəyə uyduğunu göstərir.
2. "Təsəvvüfdə zahir batinin məcazıdır": əsərdə Şeyx Sənanın da həm zahiri, həm də daxili gözəlliyindən danışılır.
3. Xumarın Sənana görünməsi, onu yüksəklərə çağırması bəsirət gözünün açılmasını ifadə edir.
4. Sənanın "bayılma"sı təsəvvüfdəki ilahi vəcd halını ifadə edir.
5. Şeyx Sənanın on il ərzində yaşadığı sınaqlar, ibadət və ziyarət məcazi eşqdən həqiqiyə keçidi əks etdirir.
6. Sənan Qafqazda xəyala daldığı zaman musiqi sədaları eşidir. Musiqi sufilərə görə ruhu cəzbəyə salan əsas vasitələrdən biridir.
7. Dərviş obrazı təsəvvüfi mahiyyət daşıyır. Burada müəllif dərvişin aşağıdakı sözlərini xatırladır:

Şəriətdən, təriqətdən kənarəm,
Həqiqət istərəm, yalnız həqiqət!
Yetər artıq şəriət, ya təriqət.

Müəllif göstərir ki, "şəriət, təqirət, həqiqət" təsəvvüfdə keçilməli mərhələləri təmsil edir.

8. Sənanın Xumarla əvvəlki görüşlərinin yuxuda baş verməsi.
9. "Birsə həqq, cümlə din də bir" fikri təsəvvüf nümayəndələrinə də xasdır.
10. Sənanın xaça, Qurana və şəraba münasibəti də təsəvvüflə bağlıdır.
11. H.Cavid yaradıcılığında çobanlıq təsəvvüfi məna daşıyır ki, bunu Musa peyğəmbərlə bağlı hədislər və Quran ayələri ilə əlaqələndirmək olar.
12. Sənanla Xumarın dünyəvi mənada yox, haqqa çatmaq məqamında qovuşması da təsəvvüflə bağlıdır.
13. Dərviş son məqamda Şeyx Sənanın haqqa qovuşmağa layiq olduğunu söyləyir.
14. Sənan Xumarla birlikdə Ərşi-əlaya yüksəlir (12, s. 25-33).

Bu zaman belə bir sual meydana çıxır: Şeyx Sənan nə üçün ilahi eşqə çatmaq üçün Xumarı sevməli idi?

T.Məmməd ilahi eşqə çatmaq üçün məcazi eşqin mahiyyətini belə izah edir: "Əks cinsə aid olan sevgi həqiqi eşqin məcazı hesab olunduğu üçün ötəri mahiyyət daşıyır və həqiqi eşq üçün keçid hesab olunur" (12, s.27). Fəlsəfə üzrə elmlər doktoru, professor Səlahəddin Xəlilov sufilərin qadına olan məhəbbətinin ilahi eşqə gedən yolda bir vasitə kimi qəbul olunmasını məşhur sufi şeyxi Fəridəddin Əttara istinadən belə izah edir: "F.Əttar bütün cazibələrdən xilas olmağın ən gözəl yolu kimi bu cazibələrin ən güclüsünü vasitə olaraq seçir. Yemək-içmək, var-dövlət, rəyasət, ictimai nüfuz, şöhrət və s.-dən ancaq eşq qanadlarında uzaqlaşmaq mümkündür" (10, s. 33). S.Xəlilov məhz bu cəhətin "Şeyx Sənan"da da öz əksini tapdığı fikrindədir.

T.Məmmədin "XX əsr Azərbaycan dramaturgiyasının poetikası" (Bakı: Elm, 1999) monoqrafiyasını digər tədqiqat əsərlərindən fərqləndirən cəhət burada H.Cavidin digər əsərləri ilə yanaşı "Xəyyam" pyesində də təsəvvüfi ideyaların varlığının göstərilməsidir. Müəllifin fikrincə, bu əsərdə təsəvvüf bəzən rasionallıqla birləşdirilir (12, s.33). Alim bu əsərdə təsəvvüfi fikirlərin mövcudluğunu əsərdən gətirdiyi müxtəlif nümunələrlə təqdim edir. Məsələn, o, Xəyyamın "Elmimdəki nöqsan ilə cəhlimdəki ürfan" sözləri ilə Şeyx Mahmud Şəbüstərinin fikrini müqayisə edir. Əsərdəki meyxana, şərab içmə səhnələrini təsəvvüfdəki şath ilə – dinin təməlinə zidd olan kəlmələrlə bağlayır və onların mənasının kimin dilindən deyildiyinə görə dəyişdiyini göstərir. T.Məmməd Xəyyamın Sevdaya olan məhəbbətini həqiqi eşq hesab edir və xatırladır ki, Xəyyamı haqq aləminə çağıran da Sevdadır. Müəllif Xəyyamın Sevda ilə qarşılaşmasında cəzbəyə düşdüyünü də göstərir (12, s.34). O, yuxudan ayılan Xəyyamın diriləri ölülərin teyfi hesab etməsini də təsəvvüfdəki real, maddi dünyanın keçiciliyi fikri ilə əlaqələndirir (12, s. 36). Deməli, T.Məmməd "Şeyx Sənan" pyesindən fərqli olaraq, bu əsərin birbaşa təsəvvüf əsasında qurulmadığını, ancaq burada da bir çox məqamda irfani fikirlərin, təsəvvüfi elementlərin mövcud olduğunu güman edir.

T.Məmmədə görə, Şərqin klassik fəlsəfi görüşləri və təsəvvüfi ideyaları "Peyğəmbər" əsərində daha güclü şəkildə əks olunmuşdur (12, s. 36). Tədqiqatçı əsərdəki rəmzi obraz və ifadələrdən də geniş söz açır və aşağıdakı rəmzləri müəyyənləşdirir:

1. Haqdan gələn nurun "Sən mənsən, mən sənəm", - deməsi Peyğəmbərin ən kamil Tanrı məzhəri olduğunu göstərir (12, s. 37). S.Xəlilov da bu fakta münasibət bildirir, o da "Peyğəmbər" pyesinin əvvəlində Mələyin Peyğəmbərə söylədiyi sözlərdə vəhdəti-vücud fəlsəfəsinin təsirini görür (10, s. 38).
2. Əsərdəki "yıldız" və "qönçə" simvollları Peyğəmbərin Tanrı ilə əlaqəsini, Tanrı nurunu təmsil edir.
3. Gecənin qara çarşafa bənzədilməsi, həmin çarşafı – cəhli yırtaraq haqqa qovuşmaq fikri təsəvvüfdən gəlir (12, s.37). S.Xəlilov da əsərdəki bu məqama diqqət yetirir, "qaranlıq" və "gecə" məfhumlarının məcazi mənada işləndiyini, qaranlığın insan qəlbinin Allah nuru ilə dolmadığını ifadə etdiyini yazır (10, s.23). Bu mənada hər iki tədqiqatçının ifadə etdiyi fikirlər bir-birinə yaxınlaşır.
4. Quran məhəbbət kitabı kimi verilir, busə haqqa qovuşmağın rəmzi kimi anlaşılır.
5. Sirri anlamağın yolunu Mələk vəhdəti-vücudda görür.
6. Peyğəmbər məhəbbətinin ilahi məhəbbət olduğunu dəfələrlə vurğulayır.
7. Peyğəmbər cəngü-rübabə, şəraba dünyəvi münasibət bəsləyənləri cahil adlandırır. Bu da həmin anlayışların təsəvvüfi mənasına uyğun gəlir (12, s. 37-40).

T.Məmməd H.Cavid yaradıcılığında təsəvvüf ideyalarının bununla məhdudlaşmadığı fikrindədir. O, "İblis" əsərində də təsəvvüfün izlərini görür və yazır ki, burada Allaha qovuşmağın yolu İblisi dəf etməkdədir (12, s.43). Bu tədqiqatın əsas əhəmiyyəti dahi filosof şair H.Cavidin yaradıcılığındakı müxtəlif məqamları sırf təsəvvüf ideyaları ilə müqayisəli şəkildə araşdırmasıdır.

Filologiya üzrə fəlsəfə doktoru Nəzakət Əzizova da "H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "İblis", "Peyğəmbər")" (Bakı: Elm, 2007) kitabında H.Cavid

yaradıcılığında təsəvvüf məsələsinə toxunmuşdur. Tədqiqatçı bu fikirdə olmuşdur ki, "İblis" əsərində sufizmin güclü təsiri hiss olunur. O, Şeyx Sənanı da həqiqətə çatmış kamil insan adlandırır. N.Əzizova bu fikirdədir ki, H.Cavid yaradıcılığına mötəzilər təriqətinin daha güclü təsiri olmuşdur (9, s.17-18).

S.Xəlilov H.Cavid yaradıcılığındakı fəlsəfi fikirləri geniş tədqiqata cəlb etmişdir. Müəllif öz əsərlərində H.Cavid yaradıcılığındakı təsəvvüfi ideyaları Şərq təsəvvüf fikrinin nümunəyəndələri olan İbn Ərəbi və F.Əttarla müqayisə etmişdir. S.Xəlilovun bu məsələ ilə bağlı gəldiyi ən maraqlı qənaət budur ki, H.Cavid Şərq fəlsəfəsi ənənələrindən istifadə etmiş, əql və nəfs arasındakı ziddiyyəti təsvir etmişdir, ancaq o, "bu daxili mübarizəyə xarici amilləri də əlavə etmiş və ictimai mühitin rolunu nəzərə almışdır" (10, s.25). Onun fikrincə, H.Cavid yaradıcılığında əql də, nəfs də ictimai məsələlər çərçivəsində reallaşır, əql ictimai ədalət kimi çıxış edir. İnsanın cismani tərəfi olan bədəni isə ictimai mühit timsalında çıxış edir (10, s.26).

S.Xəlilova görə, H.Cavid Şərq fəlsəfi ənənələrini, o cümlədən təsəvvüf ideyalarını ictimai kontekstdə, insanlararası münasibətlər çərçivəsində, insan və mühit arasındakı münasibətlər şəklində təqdim etmiş, fərdin kamilləşməsi fikrini cəmiyyətin kamilləşməsinə uyğunlaşdırmışdır. Bu da böyük Azərbaycan şairi H.Cavidin klassik Şərq ənənələrini yeni dövrə uyğunlaşdırması kimi səciyyələndirilir.

Burada maraqlı cəhət S.Xəlilovun H.Cavid yaradıcılığını məhz İbn Ərəbinin fikirləri ilə yaxın hesab etməsidir. Belə ki, müəllifin fikrincə, "Konkret bir qadına olan məhəbbətin ilahi eşqə aparan yolda bir vəsilə kimi dəyərləndirilməsi sufi poeziyasının heç də bütün klassik formalarına aid olmayıb, "məhəbbət dini"nin tərənnümçülərinə xasdır ki, bunların da ən böyük nümayəndələri İbn Ərəbi və Mövlanadır" (10, s.30). H.Cavidin də "məhəbbət dini"ni tərənnüm etdiyi fikrində olan S.Xəlilov onun İbn Ərəbi ilə yaxınlığını xüsusi vurğulayır. Bunu da onunla izah edir ki, İbn Ərəbinin fikrincə, ümuminin dərk olunması fərdidən, daha doğrusu konkret olandan keçir (10, s.31). Deməli, ilahi məhəbbətə çatmağın yolu da ayrıca insana məhəbbətdən keçir.

S.Xəlilov H.Cavidin İbn Ərəbi ilə yaxınlığını hər ikisinin də dünyəvi gözəlliklə ilahi gözəlliyin vəhdətindən çıxış etməsində görür. Müəllif bu xüsusiyyəti "Gözəllik tanrıçılığı" adlandırır (10, s.41, 45). H.Cavid yaradıcılığına "Eşq tanrıçılığı"nın da xas olduğunu bildirən S.Xəlilova görə, bu fikir ilk dəfə İbn Ərəbi tərəfindən bütöv bir təlim səviyyəsinə qaldırılmışdır. S.Xəlilov H.Cavidin fəlsəfəsini İbn Ərəbidən fərqləndirən cəhətlərin də varlığını qəbul edir. Onun fikrincə, İbn Ərəbi məhəbbətin səbəbini gözəllikdə görür, H.Cavid isə əksinə üstünlüyü eşqə verir (10, s. 49).

H.Cavidin ayrı-ayrı əsərləri və yaradıcılıq fəlsəfəsi ilə bağlı araşdırmalarda da onun yaradıcılığına təsəvvüf kontekstində yanaşmalara rast gəlirik. Filologiya üzrə fəlsəfə doktoru, tanınmış cavidşünas Azər Turan "Şeyx Sənan" əsəri haqqında danışarkən onu təsəvvüflə bağlayır və yazır ki, F.Əttarın Şeyx Sənan barədə hekayəti və H.Cavidin "Şeyx Sənan" pyesi "demək olar ki, eyni təsəvvüf ortamında cərəyan edirdi". Bu əsərlərdə "az qala rəmzlər belə eynidir" (16, s. 69). A.Turana görə, H.Cavid ədəbiyyatın təsəvvüf qatına ilk dəfə məhz Şeyx Sənan obrazı ilə daxil olmuşdur. Müəllifin fikrincə, təsəvvüfdə Allaha qovuşmağın yeddi mərhələsinin hər biri: tövbə, zöhd, vərə, səbr, təmkin və təlvin, təvəkkül və riza bu əsərdə öz əksini tapmışdır (16, s.70-71).

A.Turan əsərdəki obrazları, xüsusən Şeyx Sənan obrazını görkəmli sufi mütəfəkkirlərlə müqayisə edir. O, Şeyx Sənanı insanları Tanrıya inandırmaq üçün hətta xristian meyxanəsinə də gedən Mövlana ilə müqayisə edir. O, H.Cavidin özünü də Bəktaşi Vəli, Əhməd Yəsəvi kimi mütəsəvvüflərlə müqayisə etmişdir (16, s.74, 77).

A.Turan Şeyx Sənan obrazını "arif" adlandırmışdır. Şeyx Sənanın zünnar bağlamasının təsəvvüfdə imanın sabitliyini göstərdiyini də qeyd edir. Onun bu əsərdə qeyd etdiyi maraqlı məqamlardan biri də Şeyx Sənanın "Quran"ı yandırmaması faktıdır ki, bunu da irfani

fikirlərlə bağlayır. O həmçinin qeyd edir ki, burada təsəvvüf üçün çox səciyyəvi olan bir anlayış – qəlb – Kəbə sinonimi də verilmişdir (16, s.70-72). O, "Şeyx Sənan"da müxtəlif təsəvvüf rəmzlərinin varlığını göstərmiş, bunlardan Şeyx Sənanın Məkkədə gördüyü və Şeyx Kəbirə danışdığı yuxunu xüsusi qeyd etmişdir (16, s. 84). Bu yuxu başqa tədqiqatçıların da diqqətini cəlb etmiş və onu mistik fikirlərlə bağlamışlar. A.Turan "Şeyx Sənan"da təsəvvüfi məqamlarla bağlı fikirlərini belə xülasə edir: "Şeyx Sənan" Hüseyn Cavidin universal irfan bilgilərinin toplusudur" (16, s. 77).

Azər Turan H.Cavidin "Peyğəmbər" əsərindən danışarkən onun yaradıcılığında təsəvvüf məsələsinə də toxunur və yazır: "Bir də o anlaşılır ki, Hüseyn Cavidin "Quran" bilgisi və sevgisi irfani mədəniyyətin Azərbaycan ədəbiyyatında son əlamətiydi" (16, s.165). O, "Peyğəmbər" əsərini qələmə alındığı dövrün ümumi müstəvisində qiymətləndirərkən yazır: "Lakin "Peyğəmbər" hadisədir. Özü də təkcə ədəbi, estetik, fəlsəfi, teatral, dramaturji hadisə deyil, milli mədəniyyət tariximizdə irfan mədəniyyəti dövrünü məhz XX əsrdə yenidən ortaya çıxaran bir hadisədir" (16, s.169). Maraqlı isə budur ki, A.Turan bu dramı həm irfan mədəniyyətini XX əsrə gətirən əsər olduğunu göstərir, həm də onu irfan mədəniyyətinin son nümunəsi hesab edir.

A.Turan H.Cavidin "İblis" faciəsini də bu yönümdən araşdırma obyektinə çevirir. O, bu əsərdə "irfan rəmzləri ilə çağdaş ədəbi-estetik dəyərlərin iç-içə dayandığını" göstərir və əlavə edir: "Şeyx Sənan"la başlayan şüuraltı irfan axını, sövq-təbii "İblis"də də davam etməkdəydi" (16, s.127). Müəllif bu əsəri təhlil edərkən bir çox məqamda təsəvvüf rəmzləri görür və həmin rəmzlərin mənasını açmağa çalışır. A.Turanın fikrincə, əsərin başlanğıcından etibarən səhnəyə Arif obrazının çıxarılması da əsərdəki təsəvvüfi məqamların göstəricisidir (16, s. 125). Müəllif burada Arifi irfan təfəkkürünün nümayəndəsi, həqiqət yolunun yolçusu, bir sufi kimi başa düşür. Onun fikrincə, Arif vəhdəti-vücud axtarışında olan, Tanrıya doğru səfər edən salikdir (16, s.127).

Filologiya üzrə fəlsəfə doktoru, dosent Lütviyyə Əsgərzadə "Füzuli ənənələri Hüseyn Cavid yaradıcılığında" məqaləsində H.Caviddəki Arif obrazını M.Füzulinin "aşiq"i ilə müqayisə edir və belə nəticəyə gəlir ki, "hər ikisi insanı kamilliyə, özünüdərkə səsləyir" (8, s. 509).

Arif obrazını ilk dəfə təsəvvüflə bağlayanlardan biri də dramaturq, şair, nasir, həmçinin ədəbi tənqidçi Abdulla Şaiq ("Cavidin "İblis" nam hailəsi haqqında duyğularım" məqaləsi) olmuşdur: "Əskidən bəri Şərq ruhuna hakim olan sufiliyin yıxıcı təsiri ilə bu aləmdən uzaqlaşaraq "misal aləminə" atılmaq, orada ruhi-mütləqə qovuşmaq istəyir, göylərə xitab edərək <...> söylədiyi sözlər Arifin səciyyəsini və əhvali-ruhiyyəsini bizə pək açıq göstərir" (14, s.55).

Əsərdə verilən aşağıdakı sətirləri A.Turan "bütün mövcudatın səma etməsi" kimi başa düşür:

> Həp rəqs ediyor qanlı günəş, qanlı üfüqlər,
> Həp rəqs ediyor halə qəmər, pənbə şəfəqlər... (16, s.127).

Məlum olduğu kimi, səma ayini Mövlana ardıcılları tərəfindən həyata keçirilən, yəni təsəvvüfə aid olan bir hadisədir. A.Turan H.Cavidin burada həmin hadisəni göstərməklə yenə də təsəvvüfə yaxınlaşdığı fikrindədir. Tədqiqatçının bu fikrə gəlməsinə səbəb Füzulinin də bir beytdə fələyin sufi kimi rəqs etdiyini göstərməsidir (16, s. 128). Həqiqətən də, H.Cavidin qeyd olunan misraları ilə M.Füzulinin haqqında danışılan beyti arasında yaxınlıq görünür.

> Fələk həm ol gecə bulmuş səfa ki, sufitək
> Qərar tutmayıb, olmuş o bəzmdə rəqqas (16, s.128).

"Şeyx Sənan" faciəsində təsəvvüf elementlərinin varlığını onun əsasında duran rəvayətlə də əlaqələndirənlər vardır. Məsələn, Z.Əkbərov göstərir ki, bu rəvayətin "Tbilisi variantı əvvəlcə sufi dərvişlər tərəfindən uydurulduğundan, onda bəzi təsəvvüf istilahları mühafizə olunmuşdur" (3, s. 19). Z.Əkbərov F.Əttarın təqdim etdiyi "Şeyx Sənan" hekayətinin təsəvvüfə uyğun olduğunu göstərir: "Əttara görə, bir cüzi məqamındakı insana xoşbəxtlik gətirən ölüm onu məcazi aləmdən uzaqlaşdırıb, həqiqətə – "vücudi-küllə" doğru aparır. ... Əttarın qənaətincə, kim ki özünü dərk edir, deməli, o, Allahı da dərk etmiş olur" (3, s. 24-25). S.Xəlilov H.Cavidin bir çox əsərlərində qadına olan məhəbbətlə Tanrıya olan məhəbbətin ayrı-ayrı məfhumlar kimi götürüldüyü, eyniləşdirilmədiyini qeyd etmiş və "Şeyx Sənan"da bu iki məfhumun bir-biri ilə əlaqədə götürülməsini "pyesin təhkiyəsinin sufi mənbələrindən götürülməsi" ilə əlaqələndirmişdir (14, s. 33).

Z.Əkbərov qeyd edir ki, buradakı gürcü qızının adı əslində Tamara olmuşdur, onun sonradan Xumar adlandırılması da "təsəvvüfi bir məna daşıyır". Sənanın donuz güdməsi də sufiyanə-mistik mənalıdır, çünki donuz nəfsin rəmzlərindən biridir. "Şeyx Sənan öz məhbubu olan Allahına çatmaq üçün bir müddət nəfsi-əmmarəsini (donuzu) güdməli, dinə müğayir pis əməllərdən çəkinmək üçün öz iradəsinə hakim olmalı idi" (3, s.19-20). Əsərdəki donuz otarma hadisəsinin nəfsin saxlanılması ilə bağlı olduğunu T.Məmməd də göstərmişdir (12, s. 31).

Görkəmli ədəbiyyatşünas alim, tənqidçi Məsud Əlioğlu H.Cavidi "idrak və ürfan əhli" adlandırır və onun kamala çatmış insan idealından bəhs edir (4, s.94). Onun fikrincə, əgər bu insanın birinci xüsusiyyəti onun ruhi gözəlliyidirsə, ikinci xüsusiyyəti "mərifət nuru"dur. M.Əlioğlu H.Cavidin fikirlərini konkret olaraq təsəvvüflə əlaqələndirməsə də, onun H.Cavidlə əlaqəli işlətdiyi yuxarıdakı sözlər təsəvvüf əhlinə xas cəhətlərdir. Məgər təsəvvüf əxlaqını yaşayan şairin irsində irfan ideyaları əks olunmaya bilərmi?

M.Əlioğlu "Eşq və ülviyyət" məqaləsində Sənanın sufi məzhəbinə öz istəyi ilə qoşulduğunu göstərir. Ancaq Sənanın Xumara olan eşqinin sufilər üçün böyük qəflət olduğunu yazır (5, s. 62-63).

L.Əsgərzadə "İblis"lə yanaşı "Azər" poeması və "Şeyx Sənan" faciəsində də təsəvvüf ideyalarının varlığını göstərmişdir. O, "Füzuli ənənələri Hüseyn Cavid yaradıcılığında" məqaləsində qeyd etmişdir ki, H.Cavid yaradıcılığı sufizmi də özündə ehtiva edir. Məsələn, o, Azərin feyz aldığı "irfan çobanları"nın təsəvvüf xidmətçiləri kimi təsvir olunduğunu vurğulayır. (8, s.510). L.Əsgərzadə "Şeyx Sənan"da baş qəhrəmanların ölümündə də vəhdətivücud fəlsəfəsini görür və bu xüsusda yazır: "Bu isə ölümdən sonra zərrənin külldə qovuşması – İlahi nurda əriməsi idi. Bu, sufi təfəkkür üçün ən ülvi, ən müqəddəs ölüm idi" (8, s.512).

Görkəmli cavidşünas alim, professor Kamran Əliyev də H.Cavid əsərlərində "nurihəqq" adlandırılan anlayışa toxunmuş, onu dünyəvi mənada izah etmişdir: "Qəhrəmanların bəzilərində "Nuri-həqq" kimi ifadə olunan bu narahatlıq Topal Teymurda "dünya dəyərinin" dərki, Xəyyamda "Həyat sirrinin qaranlıqlarını" başa düşmək inadında meydana çıxır" (6, s.117).

M.Əlioğlu da Şeyx Sənanın "eşqi-ruhani" uğrunda həlak olduğunu yazmışdır (4, s.114). Ancaq o, "eşqi-ruhani"ni təsəvvüfi mənada başa düşmür. Onun fikrincə: "Bu, insan ağlını, xurafatın, mövhumatın və cəhalətin paslı zəncirlərindən xilas etmək, real-sağlam düşüncənin hərtərəfli qol-qanad açmasına nail olmaq, həyat nəşəsini, insan məhəbbətini cismani və ruhani əsarətdən qurtarmaqdan ibarətdir" (4, s.114).

K.Əliyevin "nuri-həqq" və M.Əlioğlunun "eşqi-ruhani" anlayışlarına verdikləri izahlar onların fikirlərini H.Cavid yaradıcılığında təsəvvüf təsiri görən tədqiqatçılardan fərqləndirir və bir-birinə yaxınlaşdırır.

M.Əlioğlu Xəyyam obrazı barədə yazarkən onu da ürfan əhli kimi xarakterizə edir: "Xəyyam şairlikdən mütəfəkkirliyə, hissiyyatdan ürfana doğru uzanıb gedən bir cərəyandır"

(4, s.117). Burada o, ürfan dedikdə nəyi nəzərdə tutduğunu dəqiq bildirməsə də, məlum olduğu kimi, bu söz əsasən təsəvvüflə bağlı işlənir.

Filologiya üzrə fəlsəfə doktoru Cavidə Məmmədova "Hüseyn Cavid lirikasında klassik ədəbiyyatın ənənəvi motivləri" məqaləsində təsəvvüf ideyalarının H.Cavid yaradıcılığında sistemli şəkildə əks olunduğunu və bunların şairin bədii-fəlsəfi təfəkkürünün əsasını təşkil etdiyini göstərmişdir. O, H.Cavidin qəhrəmanları ilə ənənəvi aşiq obrazları arasında böyük yaxınlıq görmüşdür (13, s.523). Tədqiqatçı "Hübuti-Adəm" poemasında da "ilahi hikmətdən yoğrulmuş" fikirlər görmüş və bu barədə yazmışdır: "Bütün bunların nəticəsi olaraq şair insana Allaha qovuşduran idraka yiyələnməyin sirlərini, bir zamanlar yerə endirildiyi Göyə ucalmağın, öz ilkin məqamına qovuşmağın batini yollarını anladır" (13, s. 524).

C.Məmmədovanın fikrincə, H.Cavid yaradıcılığındakı ölüm də irfani ölüm anlayışına uyğun gəlir, çünki lirik qəhrəman ruhunun göylərə ucalacağına, bəqaya çatacağına əmindir (13, s.526). Maraqlıdır ki, A.Talıbzadə də H.Caviddə "olumun da, ölümün də" mistika içində olduğunu qeyd edir (15, s.290).

H.Cavid yaradıcılığında Şərqin və Qərbin bir çox fikir cərəyanlarının təsirini görən A.Talıbzadə bu fikirdədir ki, Hüseyn Cavid yaradıcılığında sufi zikrlərin modifikasiyası görünür. O, buraya "suggestiv təkrirlər, təlqinləri" aid edir və bunları "vird konstruksiyasına" yaxın hesab edir (15, s. 290).

H.Cavid yaradıcılığında "irfani çaların azlığı"ndan bəhs edən görkəmli tədqiqatçılar da olmuşdur (11, s.273). M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli bunu Füzuli məhəbbətinə nəzərən, Cavid məhəbbətinin vüsala can atması, ayrılıqdan əzab çəkməsi ilə əlaqələndirmişdir.

AMEA H.Cavidin Ev Muzeyinin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı "Azərbaycan ədəbi fikri və Hüseyn Cavid" adlı monoqrafiyasında H.Cavid yaradıcılığında təsəvvüf fəlsəfəsinin araşdırılmasına xüsusi yer ayırmış və bu məsələ ilə bağlı M.Əlioğlu, S.Xəlilov və T.Məmməd kimi tədqiqatçıların fikirlərinə diqqət yetirərək, onları təhlil süzgəcindən keçirmişdir (2, s.225-233). Görkəmli cavidşünas alim G.Babaxanlı burada sufizmin mahiyyətini açıqlamış və göstərmişdir ki, sufizmə görə xaliqlə məxluqat bir vəhdət təşkil edir. İnsan Allaha qovuşmaq üçün Şəriət, Təriqət, Mərifət və Həqiqət mərhələlərindən keçməlidir.

Sufizmi ən kamil fəlsəfi cərəyan adlandıran filologiya üzrə elmlər doktoru, professor Gülşən Əliyeva-Kəngərli "Romantik faciənin mistik qatı" məqaləsində Hüseyn Cavid fəlsəfəsinə baş vurur və böyük mütəfəkkir şair haqqında belə qənaətə gəlir: o, "romantik olmaqdan əvvəl sufi olmuşdur" (7, s. 26). Alim Şeyx Sənan" əsərində bir çox məqamlarda sufi fikirləri görür və bunu əsərdən gətirdiyi nümunələr və başqa tədqiqatçılardan sitatlarla da təsdiqləyir.

Filologiya üzrə fəlsəfə doktoru Nəziymə Axundova "Şeyx Sənan" pyesində təsəvvüf ideyaları görmüş, H.Cavidin bu əsərdəki yaradıcılığını Mənsur Həllac Miyanəçi və M.Füzuli ilə müqayisə etmişdir (1, s.6).

H.Cavid yaradıcılığında təsəvvüf fikirlərini "Peyğəmbər" əsərindəki aşağıdakı misralarda da görmək olar:

Gərçi xilqətdə bəşər birsə, yenə
Tay deyil bilməyən əsla bilənə.
Kişi urfan işığında parlar
Şübhəsiz bilgidə Allah gücü var.
Əvət, arif düşünüb, haqqı bulur,
Aqibət kəndisi bir Tanrı olur ( 3, s. 251).

## Nəticə

*Yuxarıda qeyd olunan fikirləri ümumiləşdirsək, belə bir nəticəyə gələ bilərik ki, ümumşərq, ümumislam mədəniyyətinin ortaq dahisi Hüseyn Cavid yaradıcılığında Şərq fəlsəfi fikrinə yaxınlıq çox güclüdür və bu, təsəvvüf ideyalarının filosof şairin əsərlərinə yol tapması ilə özünü daha qabarıq göstərmişdir. Məhz buna görə də həmin cəhətlər hələ ilk dövrlərdən başlayaraq H.Cavid yaradıcılığını araşdıran ədəbi tənqidçilərin diqqətindən yayınmamış, zaman-zaman müxtəlif tədqiqatçılar tərəfindən diqqət mərkəzinə gətirilmişdir.*

## Ədəbiyyat siyahısı:


1. Axundova N. "Şeyx Sənan": tarix, yoxsa əfsanə?! // 525-ci qəzet, 26 iyul 2012, s.6.
2. Babaxanlı G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı: Çaşıoğlu, 2010, 244 s.
3. Əkbərov Z. Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi. Bakı: Elm, 1977, 148 s.
4. Əlioğlu M. Məslək qardaşları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 160 s.
5. Əlioğlu M. Eşq və ülviyyət / Cavidşünaslıq. I (araşdırmalar toplusu). Bakı: Elm, 2007, s.62-75.
6. Əliyev K. Romantizmin poetikası. Əsərləri, 10 cilddə, II cild. Bakı: Elm və Təhsil, 2018, 312 s.
7. Əliyeva-Kəngərli G. Romantik faciənin mistik qatı // 525-ci qəzet, 25 iyun 2011, s.26.
8. Əsgərzadə L. Füzuli ənənələri Hüseyn Cavid yaradıcılığında / Çağımızdan görünən orta əsrlər. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi professor R.Azadəyə həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. 15-16 dekabr 2014. Bakı: Elm, 2014, s.508-513.
9. Əzizova N. H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı ("Şeyx Sənan", "İblis", "Peyğəmbər"), Bakı: Elm, 2007, 153 s.
10. Xəlilov S. Cavid fəlsəfəsi (2-ci kitab: klassik Şərq və müasirlik). Bakı: Nurlar, 2009,128 s.
11. Kərimli T. Hüseyn Cavid və klassik irs / Cavidşünaslıq. I (araşdırmalar toplusu). Bakı: Elm, 2007, s.269-274.
12. Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı: Elm, 1999, 208 s.
13. Məmmədova C. Hüseyn Cavid lirikasında klassik ədəbiyyatın ənənəvi motivləri / Çağımızdan görünən orta əsrlər. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi professor R.Azadəyə həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. 15-16 dekabr 2014. Bakı: Elm, 2014, s.523-527.
14. Şaiq A. Cavidin "İblis" nam hailəsi haqqında duyğularım / Cavidi xatırlarkən. Bakı: Gənclik, 1982, s.51-62.
15. Talıbzadə A. Üsyan və cəza: fikir "kəndirbazı"nın aqibəti / Cavidşünaslıq. I (araşdırmalar toplusu). Bakı: Elm, 2007, s.288-300.
16. Turan A. Hüseyn Cavid: yaradıcılığının ədəbi, elmi, tarixi, məfkurəvi və dini qaynaqları. Bakı: Vektor, 2007, 288 s.
17. Zeynallı H. "Şeyx Sənan" haqqında mülahizələrim / Cavidi xatırlarkən. Bakı: Gənclik, 1982, s.62-85.



**Кенуль Магеррамова**

**Из истории изучения вопросы суфизма в творчества Гусейна Джавида**

Литературные произведения известного азербайджанского поэта Гусейна Джавида содержат различные философские и религиозные идеи, среди которых идеи суфизма играют очень важную роль. Исследования, посвященные Гусейну Джавиду, особенно в

современной литературоведение, уделяют большое внимание суфийским идеям Джавида. На самом деле, этот процесс начался в начале 20-го века, когда Гусейн Джавид создавал свои самые известные произведения, такие как Шейх Санан, Иблис, а затем Пророк, Хайям. Исследователи, в том числе М.Алиоглу, Т.Мамед, С.Халилов, А.Туран, Г.Бабаханлы, Л.Эсгерзаде, Г.Алиева-Кангарли писали об отражении основных идей суфизма в литературных произведениях Джавида, особенно в его пьесы. Большинство ученых из разных времен и подходов сходятся во мнении, что трагедия «Шейх Санан» основана на суфийских идеях.

***Ключевые слова:*** *литературоведение, азербайджанская литература, суфизм, ислам, восточная филофия*

**Konul Maharramova**

**From the history of researches on the issues of Sufism in Huseyn Javid's literary works**

The literary works of the reknowned Azerbaijani poet Huseyn Javid contain various philosophical and religious ideas, among which the ideas of Sufism play a very important role. The researches devoted to Huseyn Javid, especially in the modern literary criticism pay a great attention to the Sufi ideas of Javid. Actually, this process began in the early 20$^{th}$ century while Huseyn Javid was creating his most famous works such as Sheikh Sanan, Iblis, and later Prophet, Khayyam. The researchers including M.Alioghlu, T.Mammad, S.Khalilov, A.Turan, G.Babakhanli, L.Esgerzadeh, G.Aliyeva-Kangarli wrote about the reflection of the main ideas of Sufism in Javid's literary works, especially in his plays. Most of the scholars from very different times and approaches agree that the tragedy *Sheikh Sanan* is based on the Sufi ideas.

***Keywords:*** *literary criticism, Azerbaijani literature, dramaturgy, Sufism, Islam, Eastern philosophy*

Redaksiyaya daxil olma tarixi: 16.12.2019
Çapa qəbul olunma tarixi: 24.12.2019

Filologiya üzrə elmlər doktoru **Gülbəniz Babaxanlı**
tərəfindən çapa tövsiyə olunmuşdur.